# "Biz Xarıbülbülü çəkirik"



Paytaxtın insanlarla qaynar olan bir guşəsində İ.Nəsiminin heykəlinin qarşısında, açıq havada yaddaşlarda uzun illər yaşayacaq olduqca maraqlı bir tədbir keçirilib. 44 günlük Vətən Müharibəsində tarixi qələbə qazanan Azərbaycanın döyünən ürəyi sayılan "Xarıbülbül" adı altında keçirilən tədbir xüsusi önəm daşıyırdı. "Biz Xarıbülbülü çəkirik" adlanan konsert proqramını Bakı şəhəri 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin direktoru Lalə Qəti açaraq qeyd edib ki, belə bir tarixi adı xarakterizə edən tədbiri təşkil etməklə biz böyüməkdə olan gənc nəslə vətənə, torpağa məhəbbət hissini aşılayırıq, onlarda vətənpərvərlik kimi müqəddəs hisslərin coşğunluğunu artırırıq. Mərkəzimizin istedadlı yetirmələri şairlərimizin, bəstəkarlarımızın ordumuzun qələbə əzmini tərənnüm edən şeir və mahnılarını, rəsm dərnəyinin həvəskar rəssamları isə uşaq dünyasının əsrarəngiz zənginliklərindən parlayan yaradıcılıq nümunələrini təqdim edəcəklər. Bəli, sabahın döyüşkən əsgərləri, qalib ordumuzun gələcək cəngavərləri olacaq uşaq və yeniyetmələrimizi gərəkdir ki, biz bu ruhda böyüdək, tərbiyə edək, Azərbaycanımıza dünyaca şərəf qazandıra biləcək layiqli vətəndaşlar kimi yetişdirək...

Sonra meydan istedad sahiblərinə verilib. Tədbirdə mərkəzin rəsm və dekarativ-tətbiqi sənət dərnəyi üzvlərinin böyük və kiçikhəcmli "Xarıbülbül" maketlərinin üzərində yaratdıqları "Qarabağ abidələri", "Qarabağ xalçaları", "Qarabağ mədəniyyəti, "Qarabağ atları" və "Qarabağ milli geyimləri" kimi dərin məna və məzmun kəsb edən kompozisiyaları həyəcansız seyr etmək mümkün olmayıb. Mərkəz üzvlərinin ifasında vətən, torpaq, ana haqqında səslənən şeir və mahnılar da tədbir iştirakçılarında eyni əhvali-ruhiyyə yaşadıb. Uşaq və yeniyetmələrin öz istedad və bacarıqlarını həvəslə nümayiş etdirdikləri konsert proqramında Təhsil Nazirliyinin Məktəbdənkənar fəaliyyətin təşkili şöbəsinin müdiri Elnur Əliyev, Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Gülarə Verdiyeva, Xalq rəssamı Arif Hüseynov, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev və digər qonaqlar iştirak ediblər.

**Sifai SƏFƏROVA**